

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 183 (23.595)

24 oktyabr 2020-ci il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Müzəffər Azərbaycan Ordusu Xocavənd rayonunun Dolanlar, Bünyadlı kəndlərini, Cəbrayıl rayonunun Dağ Tumas, Nüsüs, Xələfli, Minbaşılı, Veysəlli, Zəngilan rayonunun Vənədli və Mirzəhəsənli kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Bu barədə Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində bildirib.

* * *

Müzəffər Azərbaycan Ordusu Qubadlı rayonunun Zilanlı, Kürd Mahrızlı, Muğanlı və Alaqurşaq kəndlərini işğaldan azad etmişdir.

Eşq olsun Azərbaycan Ordusuna! Qarabağ Azərbaycandır!

Bu barədə Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev özünün rəsmi “Twitter” səhifəsində bildirib.



# Müstəqillik işığında çiçəklənən NAXÇIVAN

*Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Naxçıvan görkəmli dövlət və hərb xadimlərinin, böyük şəxsiyyətlərin vətənidir. XX əsrdə bu torpaq dünyaya şəxsiyyətlərin fövqündə dayanan Heydər Əliyev kimi dahi bir siyasətçi bəxş etmişdir. Təkcə qədim Naxçıvan deyil, ümumilikdə, Azərbaycan nail olduğu sürətli yüksəlişə, daha dəqiq ifadə etsək, bugünkü varlığına görə məhz dahi rəhbər Heydər Əliyevə borcludur. Müstəqilliyimizin ilk illərində ölkəni bürüyən xaos və anarxiya, iqtisadiyyatın iflic vəziyyətə düşməsi, ayrı-ayrı bölgələrdə fəaliyyət göstərən qanunsuz silahlı birləşmələr yenidən qazanılan müstəqilliyin əbədi olacağını şübhə altına almışdı. Ümummilli liderimizin Moskvadan Naxçıvana qayıdışı, buradakı fəaliyyəti dövründə həyata keçirdiyi tədbirlər o illəri yaşayanların indi də yaddaşlarındadır. Ulu öndərin Naxçıvana qayıtması ilə Azərbaycan tarixinin yeni Heydər Əliyev dövrü və dövlət müstəqilliyinin əbədiliyinin təmin edilməsi mərhələsi başlandı.*



Görkəmli dövlət xadiminin Naxçıvanda siyasi hakimiyyətə qayıdışı Naxçıvandan başlanan müstəqillik yolunun bütün Azərbaycanın siyasi mühitində aparıcı qüvvəyə çevrilməsinə, milli dövlətçiliyin bərpası istiqamətində qəti addımların atılmasına gətirib çıxardı. O dövrdə Azərbaycanda cərəyan edən hadisələrdən fərqli olaraq Naxçıvan ümummilli liderimizin rəhbərliyi altında dövlət müstəqilliyinin bərpası uğrunda mübarizənin mühüm siyasi mərkəzinə çevrilmişdi.

Böyük ömrün Naxçıvanda keçən üç ili ərzində görülən işlər müstəqil dövlətimizin daha da möhkəmlənməsinə yönəldilmiş milli inkişaf konsepsiyasının tərkib hissələri idi. Bu dövrün tarixi təcrübəsi bir daha göstərir ki, Azərbaycanın müstəqilliyi, milli dövlətçiliyimizin təşəkkül prosesi dahi şəxsiyyət Heydər Əliyevin siyasi və dövlətçilik fəaliyyəti ilə sıx bağlıdır. Bu böyük şəxsiyyətin ömrünün hər anı, hər günü müstəqilliyimizi əbədi etmək, ölkənin inkişafı, iqtisadi qüdrətinin artması, insanların yaşayış səviyyəsinin yaxşılaşdırılması amalı ilə əlamətdardır. Bu, böyük şəxsiyyətlərə – yalnız xalqını, Vətənini, milli dövlətçiliyini sevənlərə xas olan yüksək keyfiyyətdir.

Müstəqilliyi qoruyub saxlamaq, inkişaf etdirmək onu əldə etməkdən qat-qat çətindir. Məhz görkəmli dövlət xadiminin siyasi iradəsi, dühası, uzaqgörənliyi, gərgin və yorulmaz fəaliyyəti ilə müstəqilliyimiz qorunub saxlandı, günbəgün möhkəmləndirildi, sarsılmazlığı, dönməzliyi və əbədiliyi təmin edildi. ***“Azərbaycanın dövlət müstəqilliyi dönməzdir, əbədidir və bizim borcumuz dövlət müstəqilliyini, əldə etdiyimiz milli azadlığı daim qoruyub saxlamaqdır... Azərbaycan xalqı azadlığını əldə etmiş xalq kimi yaşayacaq, öz müstəqil dövlətini qoruyacaq, saxlayacaq və müstəqil Azərbaycan Respublikası əbədi yaşayacaqdır”***, – deyən ulu öndər Heydər Əliyevin yaratdığı şah əsər – müstəqil Azərbaycan dövləti bu gün davamlı tərəqqi yolundadır. Hərtərəfli inkişaf xəttini davam etdirən ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi tədbirlər nəticəsində Azərbaycan daha da inkişaf edərək regionda lider dövlətə çevrilib. Bu inkişaf ölkə həyatının bütün sahələrini əhatə edir.

Azərbaycanın ayrılmaz tərkib hissəsi olan doğma Naxçıvanımız da bu böyük tərəqqinin daha geniş və parlaq müşahidə olunduğu məkandır. Blokada şəraitində olsa da, 95 ildən artı q muxtariyyət yolu keçmiş Naxçıvan yaşayır, sürətlə inkişaf edir. Muxtar respublikanın hər bir şəhəri, qəsəbəsi, kəndi yenidən qurulur, böyük və hərtərəfli tərəqqi işığında nura boyanır. Bütün bunlar isə, sözsüz ki, Heydər Əliyev siyasətinin, müstəqilliyin təntənəsidir. Qədim yurd yerimiz geniş iqtisadi potensiala malik olmasına baxmayaraq, tarixin heç bir dönəmində bugünkü kimi inkişaf etməmişdir. Müasir dövrümüzün tərəqqisinin şahidi olmaq üçün bir qədər vaxt ayırıb Ordubaddan Sədərəyə qədər kənd və qəsəbələri gəzmək kifayət edər. Naxçıvan şəhərinin füsunkarlığı isə xüsusi söhbətin mövzusudur. Bəs çətin blokada şəraitinə baxmayaraq, muxtar respublikanın sürətli inkişafının, əldə olunan nailiyyətlərin kökündə nə dayanır? Sözsüz ki, Heydər Əliyev yoluna, siyasi və nəzəri irsinə sədaqət, digər tərəfdən isə düzgün idarəetmə.

Muxtar respublikada son illərdə aparılan quruculuq tədbirləri, iqtisadi və sosial sahədəki irəliləyişlər adilikdən uzaq, möcüzəyə bənzəyən həqiqətdir. Sənayedə, tikintidə, iqtisadiyyatda, sosial həyatın bütün sahələrində analoqu olmayan uğurlar ona görə qazanılır ki, ulu öndərimizin yolunun sabaha gedən həyat gəmisinin sükanı etibarlı əllərdədir. Bu həqiqətin, reallığın fövqündə yenidənqurmadan yeniləşmə müstəvisinə qədəm qoyan Naxçıvan görünür. Ötən dövr ərzində bütün iqtisadi fəaliyyət sahələrində sürətli inkişafa rəvac verən səmərəli iqtisadi siyasət muxtar respublikamızda tarazlı və davamlı inkişaf üçün başlıca amil olub. Bunun ifadəsidir ki, şəhər və rayonlarımızda canlanma yaranıb, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırılıb, yeni təsərrüfat subyektləri fəaliyyətə başlayıb və işsizliyin səviyyəsi xeyli dərəcədə azalıb. Nəqliyyat-kommunikasiya sisteminin bərpası, elektrik enerjisi, rabitə, qaz, su təminatı kimi sosial məsələlərin həlli, müasir informasiya texnologiyalarının tətbiqi mədəni-intellektual yüksəlişə əsaslı zəmin yaradıb. Mövcud potensialdan səmərəli istifadə etməklə iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin daha da genişləndirilməsinə, ixracyönümlü məhsul istehsalının stimullaşdırılmasına, yerli sahibkarlığın inkişafı yolu ilə əhalinin həyat səviyyəsinin daha da yaxşılaşdırılmasına, məşğulluq səviyyəsinin, xüsusilə gənclərin faydalı əmək məşğulluğunun artırılmasına və ümumilikdə, muxtar respublika iqtisadiyyatının dinamik inkişafına nail olunub.

Qədim diyarımızda son illərdə həyata keçirilən iqtisadi və sosial təmayüllü islahatlar qısa tarixi dövr ərzində makroiqtisadi sabitliyin bərqərar olunmasını təmin edib, iqtisadiyyatın dinamik inkişafına təkan verib. Təbii ki, qazanılan uğurlar dövlət müstəqilliyinin bəhrələridir. Ona görə də bu gün hər bir Azərbaycan vətəndaşı çalışır ki, dövlət müstəqilliyimizi göz bəbəyi kimi qorusun. Çünki müstəqilliyimiz bizim ən dəyərli milli sərvətimizdir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin dediyi kimi: ***“Bugünkü Azərbaycan Azərbaycan xalqının zəhmətinin, istedadının nəticəsidir. Bu ölkəni biz qurmuşuq, Azərbaycan xalqı qurubdur. Biz elə etməliyik ki, hər bir vətəndaş gündəlik işində elə etməlidir ki, öz fəaliyyəti ilə bu müstəqilliyi gücləndirsin, əbədi, dönməz etsin və bundan sonra onilliklər, əsrlər boyu Azərbaycan xalqı azad, müstəqil və rifah içində yaşasın”.***

İnkişaf etmiş dövlətlərin tarixi təcrübəsində sübut edilib ki, hər bir dövlətin ən qiymətli sərvəti onun vətəndaşlarıdır. Əgər dövlət öz vətəndaşının qayğısına qalır, onun problemlərinin həllini, yaxşı yaşamasını təmin etməyi, insan hüquq və azadlıqlarını qorumağı özünün prioritet vəzifəsinə çevirirsə, bu halda həmin ölkənin inkişafı labüddür. Bu gün muxtar respublikamızın sakinləri bu reallığı öz həyat tərzlərində yaşayırlar. Burada biranlıq düşünməli olursan: Ulu öndərin uzun illər üçün hesablanmış siyasətinə sədaqət, vəzifə borcuna məsuliyyət, müstəqilliyinin əbədiliyinə cavabdehlik hissi, böyük vətəndaşlıq mövqeyidir ki, bugünkü inkişafa nail olunub.

O da qeyd olunmalıdır ki, muxtar respublikanın ayrılmaz həyat ritminə çevrilən quruculuq tədbirlərində şəhərlə kənd arasındakı fərqin aradan götürülməsi öndə dayanır. Bunu kənd yaşayış məntəqələrində bütün çalarları ilə görmək olar. Tarixboyu başı çox bəlalar çəksə də, dəfələrlə yüksəliş dövrü yaşamış, torpağının altında və üstündə zəngin mədəni irs toplanan qədim Naxçıvan bugünkü intibahı ilə, sanki çəkdiyi müsibətlərin əvəzini çıxır, ulu köklər üstündə qol-qanad açıb daha xoş sabahlara doğru inamlı addımlar atır. Tarixin yeni Naxçıvanı dostlarımızın sevinci, düşmənlərin isə gözdağıdır. Muxtar respublika milli dəyərlərə söykənərək inkişaf etdirilir, Vətən, yurd sevgisi üzərində müasir Naxçıvan ucaldılır.

Xalqımızın böyük oğlu Heydər Əliyev əsl vətəndaş olmaq üçün ləyaqət göstərməyi, xalq, Vətən naminə çalışmağı, Vətən sevgisini, doğma torpağa, doğma yurda bağlılığı əməli işlə təsdiqləməyi tövsiyə edirdi: ***“Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır”.***

Qədim Naxçıvan şəhəri tarixboyu heç vaxt belə sürətli inkişafın şahidi olmayıb. Naxçıvanın tarixində analoqu olmayan rahat, geniş yollar, yaşıllıqlara qərq olan abad küçələr, müasir şəhərsalma mədəniyyətinin yüksək tələblərinə cavab verən əzəmətli memarlıq kompleksləri, ən qabaqcıl ali və orta təhsil ocaqları ilə rəqabət apara biləcək yeni məktəblər, texnologiyanın son nailiyyətlərinə əsaslanan, ekoloji cəhətdən təmiz məhsulları ilə diqqəti cəlb edən çoxsaylı sənaye obyektləri – bütün bunlar qədim şəhərin yeni zirvələri, bu diyarda Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsinin təntənəsidir.

Beş min ildən artıq şəhərsalma tarixi olan ulu Naxçıvan əsrlərin, min illərin tarix yollarında heç vaxt yorulmayan bu şəhər qədimliyini qoruyub saxlamaqla yeniləşən diyara çevrilib. Naxçıvan artıq bu gün yeni yollarla, geniş prospektlərlə, əzəmətli binalarla, gözoxşayan, könül sevindirən müasir memarlıq abidələri ilə, inkişafın nəhəng addımları ilə irəliləyən qədim tarixə malik yeni şəhərdir. Doğrudan da, bu şəhər əsl övlad məhəbbəti ilə tikilir, qurulur, abadlaşdırılır.

*Zəngin dövlətçilik, qüdrətli sivilizasiya yollarının sahibi kimi ulu Naxçıvan belə bütöv, kompleks inkişafa nail olmaqla, aydan-aya, ildən-ilə inkişaf tempini daha da yüksəltməklə hər birimizdə qürur hissi yaradır. Bu, ümummilli liderimiz Heydər Əliyevin Vətənə hüdudsuz sevgi və sədaqətinin, onun müdrik, uzaqgörən siyasətinin layiqincə davam etdirilməsi, Heydər Əliyev yoluna, Heydər Əliyev ideyalarına sədaqətin ifadəsidir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun dediyi kimi:* ***“Bu gün Azərbaycan deyərkən Heydər Əliyev, Heydər Əliyev deyərkən Azərbaycan düşünürük. Bu, səbəbsiz deyil. Azərbaycanın 35 ilə yaxın bir dövrünü əhatə edən tarixi və siyasi taleyi, bu illər ərzində ictimai-siyasi, sosial-iqtisadi və mədəni həyatın bütün sahələrində baş vermiş dirçəliş, inkişaf və tərəqqi möhtərəm Heydər Əliyevin adı ilə bağlıdır. Bu inkişafa, tərəqqiyə görə xalqımız daim ulu öndər Heydər Əliyevə borcludur”.***


**Qızıltac ŞAHBAZOVA**
***Naxçıvan Müəllimlər İnstitutunun dosenti,***
***Naxçıvan Muxtar Respublikasının Əməkdar müəllimi***

# Muxtar respublikamızda gənclərin fiziki və çağırışaqədərki hazırlığı yüksək səviyyədə təşkil olunur

## Bu, vətənpərvər ruhlu gənclərimizin formalaşmasında mühüm rol oynayır

*Muxtar respublikamızda gənc nəslin vətənpərvər ruhda tərbiyəsi dövlət gənclər siyasətinin ən mühüm istiqamətlərindən biri kimi həmişə diqqət mərkəzində saxlanılır. Hər bir kəsə milli ruhun aşılanması prosesi körpə yaşlarından başlanılır, məktəblərdə davam etdirilir və təkmilləşdirilir. Gələcəyimiz olan gənc nəslin Vətəninə, xalqına, soy-kökünə, adət-ənənələrinə sədaqət və hörmət ruhunda formalaşması bu prosesə daha məsuliyyətlə yanaşmanı tələb edir. Bu işdə ölkəmizdə, eləcə də muxtar respublikamızda fəaliyyət göstərən təhsil müəssisələri mühüm rol oynayır. Müasir dövrdə təhsil sistemi qarşısında qoyulmuş başlıca vəzifələrdən biri də ümumtəhsil müəssisələrində həm bacarıqlı, bilikli, yenilikçi gənclər, həm də Vətəninə, xalqına, dövlətinə sadiq vətəndaşlar yetişdirməkdir. Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun da qeyd etdiyi kimi,* ***“Bizim təhsilimizin məqsədi təkcə savadlı, intellektli gənclər yetişdirmək deyil, həm də yüksək mənəviyyatlı, Azərbaycan xalqının milli dəyərlərinə sadiq vətənpərvər gənclər yetişdirməkdir. Bununla yanaşı, təhsilimizin məqsədi Azərbaycan vətəndaşını, müstəqil Azərbaycan cəmiyyətinin ləyaqətli üzvünü yetişdirməkdir”.***



Bu gün muxtar respublikamızın ümumtəhsil məktəblərində təhsil alan uşaq, yeniyetmə və gənclərə dövlət rəmzlərimizə, müstəqilliyimizə, xalqımızın tarixinə, dilinə, adət və ənənələrinə, milli dəyərlərinə hörmət və qayğı aşılanır, vətənpərvər ruhlu, Azərbaycan dövləti və xalqı qarşısında öz məsuliyyətini dərk edən, Azərbaycançılıq ideyalarına sadiq olan, müstəqil və yaradıcı düşünən gənclər yetişdirilir. Son illər muxtar respublikamızda tikilib istifadəyə verilən yeni məktəb binaları, laboratoriyalar, kitabxanalar, elektron lövhəli siniflərlə yanaşı, dünya standartlarına cavab verə biləcək hərbi kabinetlər, həmçinin orta məktəblərimizdə tədris edilən gənclərin çağırışaqədərki hazırlığı, ali təhsil müəssisələrində mülki müdafiə, fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlıq fənləri də bu işdə mühüm rol oynayır. Adıçəkilən fənlərin tədrisi gənc nəsildə vətənpərvərlik, dözümlülük, cəsurluq, intizam və şəxsi məsuliyyət hissi kimi mənəvi keyfiyyətləri inkişaf etdirir. Muxtar respublikamızda hər il mütəmadi olaraq təşkil edilən “Vətənin müdafiəsinə hazıram”, “Şahin”, “Sərhəd” hərbi-idman oyunları onların fiziki cəhətdən sağlam böyüməsinə, onlara Vətənə sevgi və məhəbbət hisslərinin aşılanmasına öz müsbət təsirini göstərir.

Gənclərimizin vətənpərvər ruhda tərbiyəsində ölkəmizin seçilən ali təhsil müəssisələrindən biri sayılan Naxçıvan Dövlət Universitetində Pedaqoji fakültənin Fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlıq müəllimliyi ixtisasının tədrisi də mühüm rol oynayır. Bu ixtisasın vətənpərvərlik hisslərinin aşılanmasında, gənc nəslin ordu həyatına hazırlanmasında rolu barədə Çağırışaqədərki hazırlıq və mülki müdafiə kafedrasının müdiri, dosent, ehtiyatda olan zabit ***Oktay Rzayev***lə həmsöhbət olduq. Müsahibim bildirdi ki, ümummilli liderimiz Heydər Əliyev gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasını təhsil sisteminin qarşısında duran ən mühüm vəzifə hesab edirdi. Bu gün ulu öndərin yolunu layiqli şəkildə davam etdirən dövlət başçımız, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev də öz çıxışlarında uşaq və gənclərin vətənpərvərlik tərbiyəsinin vacibliyini dönə-dönə vurğulayır, bu işin dövlətin təhsil, gənclər siyasətinin prioritet məsələlərindən biri olduğunu, böyüməkdə olan nəslin vətənpərvərlik, milli-mənəvi dəyərlərimizə sevgi ruhunda tərbiyə edilməsinin xalqımızın inkişafının əsası olduğunu diqqətə çatdırır.

Bu gün torpaqlarımızın düşmən tapdağı altında olduğu bir vaxtda bizim əsas vəzifəmiz gənclərdə vətənpərvərlik ruhunu, milli ruhu, döyüş əzmini qaldırmaqdır. Bu işdə Fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlıq müəllimliyi ixtisasının tədrisi böyük önəm kəsb edir və bu ixtisası normal mənimsəmiş gənclər hərbi xidmətə daha asan uyğunlaşır və nümunəvi xidməti ilə digər yoldaşlarından seçilirlər. Öyrənirik ki, universitetdə 1994-cü ildən tədris edilən bu ixtisas gənclərin Silahlı Qüvvələrdə xidmətəqədərki hazırlığının tərkib hissəsidir. Çağırışaqədərki hazırlıq və mülki müdafiə kafedrasında 2-si həkim, 5-i mülki müdafiə müəllimi olmaqla, 7 müəllim 100-ə yaxın tələbəyə hərbi-vətənpərvərlik hisslərini keyfiyyətli şəkildə aşılayır. Atıcılıq, taktiki hazırlıq, çağırışaqədərki hazırlığın tədrisi





metodikası, sıra hazırlığı, hərbi idman oyunları, hərbi idman qurğuları, hərbi nizamnamə, hərbi qanunçuluğun əsasları, hərbi topoqrafiya, orduda fiziki hazırlığın təşkilinin nəzəri əsasları kimi fənlərin tədrisi zamanı tələbə-gənclərimiz nəzəri hərbi biliklərə və praktik vərdişlərə yiyələnir, mülki müdafiənin əsaslarını, fövqəladə halların nəticələrindən mühafizə və kütləvi qırğın silahlarından müdafiəolunma üsullarını, tibbi biliklərin əsaslarını öyrənir, fiziki cəhətdən orduda xidmətə hazırlanırlar. Çağırışaqədərki hazırlıq dərsləri tələbələrin Vətənə bağlılığını artırır, torpaqlarımızı müdafiə etmək borcunun nə olduğunu dərk etməyə yardımçı olur, gəncləri mənəvi-psixoloji baxımdan hərbi həyata hazırlamaq işində, eləcə də sonrakı dövrdə onların peşəkar hərbçi kimi yetişməsində vacib rol oynayır.

Müsahibim onu da qeyd edir ki, tələbələrin hərbi-vətənpərvərlik hisslərinin artırılmasında canlı ünsiyyətin də mühüm rolu vardır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamı əsas götürülərək tələbələrimiz Naxçıvan Muxtar Respublikası Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətində, Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyində təlimlər keçir, hərbi hissələrdə kurslarda iştirak edirlər. Hər il universitetdə 1 mart – Ümumdünya Mülki Müdafiə Günü ilə bağlı hami təşkilatlarla birgə geniş tədbir keçirilir. Bütün bunlar tələbələrimizin mülki müdafiə fənnini daha yaxşı mənimsəməsinə şərait yaradır, onları baş verə biləcək fövqəladə halların qarşısının alınması və nəticələrinin aradan qaldırılması sahəsində, eləcə də səfərbərlik və hərbi xidmətə çağırış işinin təşkili barədə maarifləndirir, həmçinin tələbələrin nəzəri biliklərinin təcrübədə möhkəmlənməsində mühüm rol oynayır.

Müsahibim Fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlıq müəllimliyi ixtisasında təhsil alan tələbələrin uğurlarından qürurla danışaraq bildirir ki, güclü maddi-texniki bazaya malik fakültədə Mülki müdafiə, Çağırışaqədərki hazırlığın tədrisi metodikası kabinələri, həmçinin açıq havada böyük və minifutbol, voleybol, basketbol, tullanma, qaçış və digər idman növləri üzrə meydançalar tələbələrin ixtiyarındadır. Gənclərimiz mütəmadi olaraq ali və orta ixtisas təhsili müəssisələri arasında keçirilən hərbi idman oyunlarında, atıcılıq yarışlarında, həmçinin muxtar respublika və beynəlxalq miqyaslı yarışlarda iştirak edərək uğurlar qazanırlar.

Biz də fakültənin bilikli, bacarıqlı və vətənpərvər ruhlu bir qrup tələbəsi ilə həmsöhbət olduq. Müsahibim ***Məhəmməd Şahbazov*** universitetin Fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlıq müəllimliyi ixtisası üzrə II kurs tələbəsidir. O deyir ki, Naxçıvan Dövlət Texniki Kollecində Nəqliyyat daşımalarının təşkili ixtisası üzrə təhsilini başa vurduqdan sonra hərbi xidmətə yollanıb. 2017-2018-ci illərdə hərbi xidmətdə öz yoldaşlarından seçilib, fərqləndiyinə görə ona kiçik çavuş hərbi rütbəsi verilib. Məhəmmədə uşaq yaşlarından formalaşan Vətənə dərin məhəbbət hissləri hərbi xidmətdə olduğu vaxtlarda hərbçi peşəsinə maraq oyadır və ali təhsil almaq qərarına gəlir. Arzusunda olduğu ixtisası seçir. Fakültənin intizamlı, çalışqan tələbələrindən olan müsahibim peyntbol, atıcılıq üzrə yarışlarda iştirak edərək uğurlar əldə edib. O deyir ki, Vətəni, torpağı müdafiə etmək müqəddəs vəzifəmizdir. Bu gün torpaqlarımızın işğaldan azad olunması uğrunda aparılan ədalətli mübarizədə mən də qüdrətli ordumuzun sırasında döyüşməyə hazıram. Düşünürəm ki, hərbi xidmət zamanı, eləcə də ixtisasım üzrə əldə etdiyim biliklərlə bu məsuliyyətli vəzifənin öhdəsindən gələ bilərəm.

Həmsöhbət olduğumuz digər bir tələbə ***Məhərrəm İsmayılov***dur. Hazırda IV kursda təhsilini davam etdirən Məhərrəm deyir ki, ixtisası üzrə əldə etdiyi bilik gələcəkdə hərbi xidmət keçərkən ona çox kömək olacaq. Burada öyrəndiklərimi hərbi xidmət keçərkən də məsuliyyətlə yerinə yetirəcək, üzərimə düşən tapşırıqları, vəzifələri vaxtında və düzgün icra edəcək, xidmətimlə digər yoldaşlarıma da nümunə olacağam.

Məhərrəm də muxtar respublikamızda ali və orta ixtisas təhsili müəssisələri üzrə keçirilən atıcılıq yarışlarında iştirak edərək qalib adını qazanan gənclərimizdəndir.

Digər bir müsahibim ***Rauf Orucov*** isə qeyd edir ki, ailələrində hərbçi olması onun da uşaq vaxtlarından bu sahəyə marağını artırıb. IV kursda təhsil alan Rauf fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlığı məqsədilə keçirilən bir çox təlimlərdə iştirak edib və ixtisası üzrə əldə etdiyi biliklər burada köməyinə çatıb. O deyir ki, sıra hazırlığı fənninin tədrisi zamanı keçirilən təlimlər ona və digər yoldaşlarına intizamlı olmağı, tapşırıqları tez və dəqiq yerinə yetirməyi, fiziki cəhətdən daha sağlam, güclü, dözümlü və çevik olmağı öyrədir. Həmçinin bu fənnin tədrisi gələcəkdə ordu həyatına uyğunlaşmanı və hərb işinin öyrənilməsini asanlaşdırır, biz gənclərə nümunəvi xidmət üçün əlavə motivasiya verir. Taktiki hazırlıq fənnində isə müəllimlərimiz tərəfindən hücum və müdafiə taktikası praktik, əyani vəsaitlərlə izah edilir, yeni təlim metod və üsullarından istifadə etməklə göstərilir, əvvəlcə tək-tək, sonra isə manqalar və yaxud taqım şəklində elementlərlə yerinə yetirilir.

Müsahibim güləşlə də müntəzəm məşğul olur. O bu idman növünün gələcəkdə hərbiyə mənəvi və psixoloji cəhətdən hazır olmasında mühüm rol oynayacağını qeyd edir və muxtar respublikamızda güləş üzrə təşkil olunan yarışlarda iştirak edərək müvəffəqiyyət qazandığını vurğulayır.

Günümüzdə orduya ancaq oğlanlar çağırılsa da, dünyada gedən proseslər qızların da hərbi işləri öyrənməsini zəruri edir. ***Zöhrə Abbasova*** belə gənclərimizdən biridir. Fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlıq müəllimliyi ixtisasının II kurs tələbəsi olan Zöhrənin hərbi sahəyə marağı elə ailəsindən irəli gəlir. O deyir ki, Vətənin keşiyində dayanmaq, ona qulluq etmək hər bir vətəndaşımızın vəzifə borcudur. Mənim də hərbçi olmaq istəyim Vətənimə olan sevgimdən qaynaqlanır. Müsahibim bildirir ki, ixtisası üzrə artıq bir çox bilikləri mənimsəyib, gənc əsgər səviyyəsində bacarığa yiyələnib. Gələcəkdə ixtisası üzrə peşəkar kadr hazırlamaq onun əsas məqsədidir.

*Müsahiblərimizlə də söhbətdən göründüyü kimi, müharibə şəraitində yaşadığımız bir dövrdə Fiziki tərbiyə və gənclərin çağırışaqədərki hazırlıq müəllimliyi ixtisasının tədrisi aktualdır. Sevindiricidir ki, muxtar respublikamızda bu fənnin tədrisi, eləcə də gənclərimizin vətənpərvər ruhda tərbiyəsi istiqamətində həyata keçirilən kütləvi tədbirlər, maarifləndirmə və təbliğat işləri nəticəsində Vətənimizə, doğma torpağımıza bağlı, dövlətimizə, milli-mənəvi dəyərlərimizə sadiq nəsil yetişir. Məhz həmin gənclərdir ki, bu gün torpaqlarımızın işğaldan azad edilməsi uğrunda qorxmadan, cəsarətlə düşmənlə döyüşür və bu yolda vətənpərvərliyin ən ali zirvəsinə – şəhidlik adlı zirvəyə ucalmağı böyük şərəf və qürur bilirlər. Məhz gələcəyimizi Vətəninə, torpağına, bayrağına, xalqına bağlı gənclərə etibar ediriksə, demək, sabahımız daha parlaqdır, qələbəyə gedən yolumuz isə açıq və uğurludur.*

**Güntac ŞAHMƏMMƏDLİ**



## Ali təhsil ocağının rəsmi internet saytı yenilənib

*Naxçıvan Dövlət Universitetinin rəsmi internet saytı (ndu.edu.az) müasir proqram təminatı və tərtib olunmuş alqoritm əsasında yenidən hazırlanaraq istifadəyə verilib.*

Təqdimat mərasimində çıxış edən universitetin rektoru, dosent Elbrus İsayev qeyd edib ki, yenilənmiş saytın əsas məqsədi müasir iş prinsiplərinin və innovativ yeniliklərin tətbiqi, rabitə və internet xidmətləri sahəsində fəaliyyəti gücləndirmək, kütləvi informasiya vasitələri ilə əlaqələrin daha dinamik və operativ şəkildə qurulmasını təmin etməkdir. Bildirilib ki, həm funksionallıq, həm də dizayn baxımından müasir tələblərə uyğunlaşdırılan saytda elektron xidmətlərin həcmi genişləndirilib, funksionallığı artırılıb və yeni modullar əlavə edilib. Həmçinin saytın mobil versiyası da hazırlanıb, gələcəkdə rus və ingilis dili versiyalarının da yenilənməsi üzərində iş aparılır.

Universitetin İnformasiya-kommunikasiya texnologiyaları və elektron təhsil şöbəsinin müdiri Hüseyn Əsgərli sayt haqqında təqdimatla çıxış edib. Qeyd olunub ki, yeni sayt “Universitet haqqında”, “Administrasiya”, “Elm və təhsil”, “Elmi əsərlər” jurnalı”, “Sosial-mədəni mühit”, “Tələbə təşkilatları”, “Bizimlə əlaqə” və digər bölmələrdən ibarətdir. Universitetin ilkin qısa təsviri ilə istifadəçilər əsas səhifədə “Virtual səyahət” bölməsi vasitəsilə universitetlə tanış ola bilərlər. “Xəbərlər və elanlar” bölməsində tədbirlərə dair xəbərləri izləmək mümkündür.

Vurğulanıb ki, saytda universitetin daxili elektron sənəd dövriyyəsi sistemi (*nsu.edu.az*), universitetin elektron kitabxanası (*lib.ndu.edu.az*), dərs, imtahan və digər elektron cədvəlləri əks etdirən E-cədvəl veb tətbiqi və Elekton təhsil sistemi (*lms.nsu.edu.az*) portalına birbaşa keçid imkanı, *ndu.edu.az* elektron poçt ünvanından istifadə üçün E-poçt bölməsi də yaradılıb.

Saytın “Rektora müraciət” bölməsində istifadəçilər ərizə formasını doldurmaqla birbaşa rəhbərliyə öz müraciətlərini ünvanlaya bilərlər.

Diqqətə çatdırılıb ki, saytda ilk dəfə yaradılan “Onlayn sənəd qəbulu” bölməsində universitetin tələbəsi adını qazanmış istənilən abituriyent universitetə gəlmədən onlayn qeydiyyatdan keçə bilər. “İmtahan nəticələri” bölməsi vasitəsilə tələbələr istənilən yerdən sayta daxil olaraq bu barədə məlumat əldə edə bilərlər.

Saytda universitetin “Elmi əsərlər” jurnalı üçün ayrıca səhifə hazırlanıb və keçid verilib. Universitetin sosial şəbəkələrdəki səhifələrinə keçidlər də yer alıb ki, bu da saytdan istifadə edənlərin sayının artmasında mühüm əhəmiyyətə malikdir. Məzunlarla əlaqələrin gücləndirilməsi məqsədilə “Məzun anketi” bölməsində Naxçıvan Dövlət Universitetini bitirən məzunlar qeydiyyat formasını dolduraraq universitetin elektron məzun bankının formalaşdırılmasında iştirak edə bilər. Təqdimatda o da diqqətə çatdırılıb ki, mövcud resurslardan istifadə edərək sayt üçün hosting server qurulub. Bu isə o deməkdir ki, artıq universitet özü müxtəlif qurumlara məxsus veb saytlar üçün hosting şirkətini əvəz edə bilər. Qeyd edək ki yeni serverin və saytın təhlükəsizliyi tam şəkildə təmin olunub, sayt üçün SSL güvənlik sertifikatı yüklənilib.

**Səadət ƏLİYEVA**

**Əqil Mehdiyev – 100**

## Yaddaşlarda yaşayan baş həkimim, hörmətli nazirim, el ağsaqqalı

***Muxtar respublikamızın gündəlik siyasi, ictimai, sosial həyatının aynası “Şərq qapısı” qəzetinin növbəti sayını açan kimi (bütün saylarını mütləq oxuyuram) Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun tanınmış həkim və ictimai xadim Əqil Səftər oğlu Mehdiyevin anadan olmasının 100 illik yubileyinin keçirilməsi haqqında imzaladığı sərəncam mənim də Naxçıvanımızın görkəmli səhiyyə xadimi ilə bağlı xatirələrimi oyatdı. Sərəncamı oxuyarkən qeyri-ixtiyari sevinc və fərəhdən doğan qəhər hissi keçirdim. Sevindim ona görə ki, ölkəmizdə, onun qədim diyarı Naxçıvanımızda Vətən və xalq üçün, cəmiyyətin maariflənməsi, mədəniyyəti, sağlamlığı yolunda ömrünü şam kimi əridən hər kəsin fəaliyyəti dəyərləndirilir. Ümummilli liderimiz Heydər Əliyevin insanların sağlamlığı keşiyində dayanan səhiyyə işçilərinin əməyini yüksək qiymətləndirmək ideyaları bu gün də müstəqil Azərbaycanın Prezidenti cənab İlham Əliyev və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbov tərəfindən davam və inkişaf etdirilir.***



Sevindim ona görə ki, Ali Məclis Sədrinin bu sərəncamı mənim illərlə – ilk əmək fəaliyyətinə başladığım gündən təqaüdə çıxana qədər tibb bacısı çalışdığım, indiki Naxçıvan Muxtar Respublika Xəstəxanasında baş həkim, sonra 9 il səhiyyə naziri işləmiş, bu gün də böyük ehtiramla yad etdiyim nüfuzlu el ağsaqqalı, bacarıqlı səhiyyə təşkilatçısı, fəaliyyəti, davranışı, etikası, mədəniyyəti ilə böyük hərflə yazmağa cəsarət etdiyim bir Azərbaycan kişisinin 100 illik yubileyi haqqında idi!

Qəhərləndim... Baş həkimim, nazirim tələbkar, qayğıkeş, həssas Əqil müəllimin rəhbərliyi altında həvəs və cəsarətlə, yorulmadan çalışdığım ağxalatlı illərimə qayıtdım!

...Tibb məktəbinin son kursunda oxuyanda ozamankı səhiyyə nazirimiz Adil Məmmədov bizə səhiyyə işinin təşkili fənnindən dərs deyirdi. Bir gün bizi avtobusla Nehrəm kəndindəki xəstəxanaya təcrübəyə aparanda fikirləşdik ki, adi kənd xəstəxanasında nə var ki, nazir bizi ora aparır? Lakin xəstəxananın həyətinə girəndə xəstəxanadan tutmuş baş həkiminə kimi nə qədər nizam-intizamlı, palatalarından tutmuş həkim otaqları, kabinələr, növbətçi otaqları, mətbəx, sanitar otaqlarında gördüyümüz ideal təmizlik, səliqə-sahman zənnimizdə yanıldığımızı göstərdi.

Təcrübədə olduğumuz respublika xəstəxanası, doğum evi, poliklinika, uşaq xəstəxanası kimi böyük tibb müəssisələri ilə müqayisədə 50 çarpayılıq kənd xəstəxanası nümunəvi idi. Həsəd apardım: kaş gələcəkdə belə bir yerdə işləyə idim... Kaş Əqil Mehdiyev kimi baş həkimimiz ola idi...

Respublika xəstəxanasında ilk əmək fəaliyyətinə başlayandan 3 il sonra Əqil müəllim bizə baş həkim təyin edildi.

Ritorikaya, pafosa, təfərrüata varmadan sitatsız, filansız Əqil müəllim haqqında xatirələrimi bölüşəcəyəm sizinlə... Həm də, bəlkə də, o zaman az dəyərləndirdiyimiz səciyyəvi xüsusiyyətləri ilə bugünkü nəslə, gənc həkimlərə, səhiyyə müəssisəsi rəhbərlərinə örnək ola bilən bir ictimai xadim, fədakar səhiyyə təşkilatçısı, ləyaqətli el ağsaqqalı haqqındakı xatirələrimi...

Baş həkim – Əqil müəllim gələn gündən xəstəxanamızda müalicə profilaktika, təsərrüfat, iaşə, mədəni xidmət cəhətdən quruculuq işləri geniş vüsət aldı: xəstəxananın 4 mərtəbəli ikinci korpusunun tikdirilməsindən sonra ümumi cərrahiyyə – təqaüdə çıxana qədər o şöbədə işləmişəm – urologiya, Lor, travmatologiya, daxili xəstəliklər şöbələri yarandı. Əqil həkim muxtar respublikada ilk dəfə Naftalanla vanna müalicəsi otaqları, qanköçürmə palataları, kliniki, biokimyəvi, bakterioloji laboratoriyalar, beşdəqiqəliklər və ümumi iclaslar üçün gözəl klub yaratdı ki, həmin klubda həftədə bir dəfə xəstələr və işçilər üçün filmlər nümayiş etdirildi. Gözəl piano aldırmışdı: bacaran gedib çala bilərdi. Xəstəxananın həyətinə girəndən başlayırdı: bərbərxana, işçilər üçün ərzaq mağazası, qəzet-kitab köşkü, xəstələr və işçilər üçün hamam binası, dördüncü mərtəbədə kitabxana, həyətin arxa tərəfində gözəl gülkarlıq: bütün bunlar Əqil müəllimin adı ilə bağlıdır.

Deontologiya – həkim-xəstə, həkim-tibb işçisi münasibətlərində həssas və ədalətli idi. Bir dəfə növbədə idim, xəstə gətirən bir kişi yersiz dava-dalaş salıb bizi təhqir etdi. Səhər Əqil müəllim həmin adamı tapdırıb bizdən üzr istətdirdi.

El arasında deyərlər, filankəs o qədər həyalıdır ki, başını qaldırıb adamın üzünə baxmaz Əqil müəllim belə kişilərdən idi, özü yaşda və yaşlı qadınlara “bacı”, biz cavanlara isə “qızım” deyərdi. Bütün işçilərinə qarşı diqqətli və qayğıkeş idi. İşçilərdən hər adam onu toyuna çağıra bilməzdi, çox ciddi idi, lakin kiminsə yası olanda mütləq iştirak edər, xəstəxananın öz topladığı fondundan yas yerinə maddi kömək edərdi.

Həkimlərin ixtisas savadının artırılmasına, müalicə işində ölkəmizin və dünya tibb təcrübəsinin nailiyyətlərinə yiyələnməyə üstünlük verən Əqil müəllim, gənc həkimləri, hətta dövrünün ən bacarıqlı cərrahı Cabbar Cəfərovu, Cəbrayıl Abbasovu, travmatoloq Aydın Qazıbəyovu, həkim-laborant Məhbubə Abdullayevanı Kiyev şəhərinə təkmilləşdirmə kursuna göndərmişdi.

Milli adət-ənənələrimizdə mühafizəkar olduğu qədər də sivil bir şəxsiyyət idi, işin xeyirli nəticəsi naminə bəzən rəsmi çərçivələri aşıb keçərdi.

Mən işləyə-işləyə Naxçıvan Dövlət Universitetinə əyani qəbul olanda tövsiyə etdi ki, işdən çıxma, keç gecə növbəsinə, işin qalmasın, səhər beşdəqiqəliyi gözləmə, get dərsinə. Bu, böyük maddi və mənəvi qayğı idi mənə.

Əqil müəllim fəaliyyəti dövründə öz şəxsi nümunəsi ilə nüfuz qazanmaqla ətrafdakılara örnək idi. Tibb İnstitutunun tələbə yataqxanasından otaq yoldaşları cərrah Əsəd Həsənov və travmatoloq Əkbər Qəhrəmanov ömrünün sonunadək Əqil müəllimin sadiq dostları olub. Buna baxmayaraq, onlara qarşı hamıdan artıq tələbkar idi. Heç nədə güzəştə getməzdi, işin ən çətinini onlara tapşırardı. Bununla bərabər, ailələrinin hörmətli ağsaqqalı, uşaqlarının Əqil əmisi idi! Eləcə də bu tələbkarlıq kürəkəni travmatoloq Adil Məmmədov, tibb bacısı işləyən qızı Leyla xanıma, xəstəxanamıza təcrübəyə gəlmiş Tibb İnstitutunun tələbəsi, oğlu Səftər Mehdiyevə qarşı da qüvvədə idi.

Baş həkimimiz olan müddətdə bir dəfə də olsun, onu xalatsız, papaqsız görmədik.

Əqil müəllimlə bağlı bir xatirə heç zaman yadımdan çıxmaz. Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrının möhtəşəm zalında görkəmli cərrah, SSRİ Xalq həkimi Mehdi Bağırovun da yubileyi keçirilirdi. Alqışlar altında səhnəyə Mehdi Bağırov, Cabbar Cəfərov, Respublika Xəstəxanasının baş tibb bacısı Həqiqət Məmmədova və mən – Cərrahiyyə şöbəsinin baş tibb bacısı daxil olub sadə stol arxasında oturduq. Bu, Əqil müəllimin, necə deyərlər, “rejissor işi” idi, simvolik mənası da o idi ki, həkimin müalicə işi tibb bacısının köməyi ilə reallaşır. Bu o demək idi ki, M. Bağırov yüksəldiyi o ucalıqda həmişə tibb bacılarının köməyinə, zəhmətinə arxalanıb. Və bir də ustad olaraq yanında oturan Cabbar Cəfərov kimi görkəmli cərrah yetirib!

Ümumiyyətlə, böyük şəxsiyyətlər həmişə əməllərinin arxasında dayanır, işi, fəaliyyəti, əməlləri onu tanıdır. Əqil müəllim də belə şəxsiyyətlərdən idi. O böyüdüb tərbiyə etdiyi yaxşı övladlarını irəli buraxaraq onların işləri ilə fəxr edib arxalarınca gözüdolusu baxıb sakitcə qürurlanan valideyn təsiri bağışlayırdı.

Görkəmli həkim, səhiyyə təşkilatçısı və dövlət xadimi Əziz Əliyevin, tanınmış yazıçı Hüseyn İbrahimovun, Əməkdar artist Abdulla Babayevin təntənəli yubileylərində baş həkimim, nazirim tamaşaçı zalında əyləşib, səhiyyə işçiləri adından təbrik üçün çıxış etmişəm. Və bu yüksək etimadların zirvəsi olaraq Əməkdar həkim, tanınmış cərrah Cabbar Cəfərovun 70 illik yubileyinin təşkilati işlərini Əqil müəllim mənə tapşırmışdı. Tapşırmış və işin icrasına nəzarət edib tələbkarlıqla nəticəsini yoxlamışdı.

Əqil müəllimin baş həkim, nazir işlədiyi illəri Naxçıvan səhiyyəsinin intibah dövrü hesab etmək olar. Bu illər Naxçıvan səhiyyəsinə görkəmli nevropatoloq, bu gün həm də gözəl təşkilatçı kimi səhiyyəmizin inkişafında xidmətləri olan hörmətli Səhiyyə nazirimiz Niyazi Novruzov, tibb elmləri namizədləri Sabir Novruzov, Cəbi İsmayılov, Adil Məmmədov, Etibar Babayev, tibb elmləri doktoru İsa Abdullayev, imzası Azərbaycan hüdudlarından kənarda da təsdiqlənən gözəl rentgenoloq Qoçəli Dünyamalıyev, tanınmış uroloq Xaspolad Tutayuq, gözəl hemotoloqlar Xalidə Bağırova, Məmmədəli Həsənov, pulmonoloq İsmət İmanova, istedadlı reanimotoloq Elsevər Ağəliyev və başqa adlarını sadalamadığım onlarca bacarıqlı səhiyyə təşkilatçısı və stasionar mütəxəssislər bəxş edib.

Əqil müəllim Naxçıvan Muxtar Respublikasının Ağsaqqallar Şurasına Sədri seçilməmişdən çox-çox əvvəl də sözü keçən, nüfuzuna hörmət qoyulan ağsaqqal idi. Xeyir-şər ritualları üçün onun qoyduğu qaydaqanunlar doğma kəndi Nehrəmdə bu gün də qüvvədədir və aktualdır.

*Qədirbilən dövlətimiz, xalqımız tərəfindən Əqil müəllimin əməyi yüksək qiymətləndirilib. Ümummilli liderimiz Heydər Əliyevin sərəncamları ilə o, Vətənin ali mükafatlarına – “Şöhrət” və “İstiqlal” ordenlərinə layiq görülüb. Tanınmış həkim, ictimai xadim, unudulmaz şəxsiyyət Əqil Mehdiyevin anadan olmasının 100 illik yubileyinin dövlət səviyyəsində qeyd edilməsi haqqında Ali Məclisin Sədri cənab Vasif Talıbovun imzaladığı sərəncamı, ümumilikdə, bütün səhiyyə işçilərinin əməyinə verilən yüksək qiymət kimi dəyərləndirirəm və daim hörmətlə yad etdiyim çox hörmətli baş həkimim, nazirim, el ağsaqqalım Əqil müəllimin fəaliyyətinə göstərilən bu qayğı və ehtiram zənn edirəm ki, o illərin ağxalatlısı olan mənim kimi onu tanıyan hər kəsin böyük rəğbət və sevincinə səbəb olub. Bütün bunlar üçün Ali Məclisin Sədrinə minnətdaram.*

**Nubar ABDULLAYEVA**
***təqaüddə olan tibb bacısı***

*Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2007-ci il 15 may tarixli Sərəncamı ilə təsdiq olunmuş “Hüseyn Cavidin 125 illiyinin Naxçıvan Muxtar Respublikasında keçirilməsi ilə əlaqədar Tədbirlər Planı”na əsasən hər il oktyabrın 24-ü Naxçıvan Muxtar Respublikasında “Hüseyn Cavid Poeziya Günü” kimi qeyd edilir. Bu münasibətlə Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə ədibin Naxçıvan şəhərindəki ev-muzeyi və xatirə kompleksində tədbir keçirilib.*

## Hüseyn Cavidin anadan olmasının 138-ci ildönümü və “Hüseyn Cavid Poeziya Günü”nə həsr olunmuş tədbir



Tədbiri giriş sözü ilə Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natəvan Qədimova açıb. Nazir çıxışında milli poeziyamızda fəlsəfi lirikanın təkrarsız nümunələrini yaratmış görkəmli söz ustadının həmişəyaşar yaradıcılığından bəhs edib, Hüseyn Cavid şəxsiyyətinə və irsinə göstərilən dövlət qayğısından söhbət açıb.

Böyük Cavidin, onun yaradıcılığının xalqımıza qaytarılmasında və təbliğində ümummilli lider Heydər Əliyevin rolundan söhbət açan nazir qeyd edib ki, ulu öndər Heydər Əliyevin böyük səyləri və cəsarəti sayəsində şairin cənazəsi 1982-ci ildə Azərbaycana gətirilərək doğulduğu Naxçıvan torpağında dəfn olunub. Dahi rəhbərin şəxsi təşəbbüsü və himayəsi ilə ədibin məzarı üzərində 1996-cı ildə məqbərə ucaldılıb.

Bildirilib ki, ölkə Prezidenti cənab İlham Əliyevin ədibin 125 və 130 illik yubileyləri haqqında sərəncamları Cavid şəxsiyyətinə ehtiramın ifadəsidir.

Doğma diyarımızda da Cavid irsinin yaşadılması, öyrənilməsi və təbliğ olunması xüsusi diqqətdə saxlanılır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin ədibin yubileyləri ilə bağlı imzaladığı sərəncamlar və təsdiq etdiyi Tədbirlər Planına əsasən qədim diyarımızda da böyük sənətkarın yubiley tədbirləri yüksək səviyyədə təşkil olunmuş, elmi konfrans və simpoziumlar keçirilmiş, Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Hüseyn Cavidin “Şeyx Sənan” və “İblis” əsərləri tamaşaya hazırlanmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş “Oxunması zəruri olan kitabların Siyahısı”na görkəmli şairin “Azər” poemasının daxil edilməsi isə ədibin zəngin irsinin gənc nəslə çatdırılması sahəsində atılan mühüm addım kimi dəyərləndirilir. Ötən il Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin sərəncamına əsasən keçirilən dahi ədibin oğlu Ərtoğrol Cavidin 100 illik yubiley tədbirləri də Cavid irsinə göstərilən qayğının bariz nümunəsidir.

Naxçıvan Muxtar Respublikası Yazıçılar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi Asim Əliyev çıxış edərək dahi mütəfəkkirin keşməkeşli həyat yolundan və Azərbaycan ədəbiyyatına bəxş etdiyi bənzərsiz yaradıcılıq irsindən bəhs edib.

Sonda tədbir iştirakçıları Hüseyn Cavidin ev-muzeyinin ekspozisiyası ilə tanış olublar.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

## Ekoloji maarifləndirmə tədbirləri davam etdirilir

*Muxtar respublika ərazisində ekoloji tarazlığın qorunması, əlverişli ekoloji mühitin yaradılması, insanların sağlam ətraf mühitdə yaşamasının təmin edilməsi məqsədilə həyata keçirilən uğurlu sosial-ekoloji siyasət sentyabr ayında da davam etdirilmişdir. Ay ərzində ətraf mühitin mühafizəsi, qanunsuz ov və meşə fondu torpaqlarından istifadə edilməsi, ətraf mühitə təsir hallarının qiymətləndirilməsi məqsədilə 10 yoxlama-reyd keçirilmiş, 4 inzibati xəta qeydə alınmış və qanunauyğun tədbir görülmüşdür.*

Muxtar respublikanın təbiətinin qorunması üçün inzibati tədbirlərdən daha çox ekoloji-hüquqi maarifləndirmə tədbirlərinə üstünlük verilir. Bu məqsədlə Şərur rayonunun Dəmirçi, Culfa rayonunun Qazançı, Ordubad rayonunun Sabirkənd və Şahbuz rayonunun Külüs kəndləri ərazisində tədbirlər keçirilmişdir. Şərur, Sədərək, Ordubad, Babək, Şahbuz, Kəngərli və Culfa rayonlarının 30-a yaxın yaşayış məntəqəsi ərazisində ekoloji monitorinqlər aparılmışdır.

Hesabat ayında Araz çayının və Arpaçayın muxtar respublikaya daxil olan hissəsindən və Sədərək rayonu ərazisindən keçən Şir arxından hər birindən 4 olmaqla, ümumilikdə, 12 su nümunəsi götürülmüş və Sədərək Rayon Su Monitorinq Laboratoriyasında analiz aparılmışdır. Analizlərdə sularda çirklənmə hallarının yol veriləbilən qatılıq həddini keçməsi halı qeydə alınmamışdır.

Payız fəslində yeni yaşıllıqların salınması ilə bağlı hazırlıqlara başlanılmış, Əshabi-Kəhf ziyarətgahı istiqamətində 3 hektar sahə əkin üçün hazırlanmışdır. Həmçinin ay ərzində püstə bağlarına aqrotexniki qaydada qulluq göstərilmişdir. Müxtəlif ərazilərdə salınan yaşıllıqlarda bərpa məqsədilə 680 ting əkilmişdir. İlin əvvəlindən təsdiq olunmuş toxum bölgüsünə uyğun olaraq 857 kiloqram müxtəlif meyvə və meşə cinslərinin toxumları tədarük olunmuşdur. Bu iş davam etdirilir.

Qış mövsümündə fauna ehtiyatlarının qaba yemə və daşduza olan tələbatının ödənilməsi məqsədilə 75 kip qaba yem, 7,5 tona yaxın daşduz ehtiyatı yaradılmışdır. Hazırda 500 kipə yaxın qaba yem, 8 tondan artıq daşduz ehtiyatı mövcuddur, meyvə-tərəvəz qalıqları isə mövsümə uyğun olaraq tədarük ediləcəkdir.

Hesabat ayında Naxçıvan Muxtar Respublikasının Babək, Culfa və Ordubad rayonlarında yaradılacaq “İlandağ” geoparkının layihələndirilən ərazisinin geoloji, ekoloji xəritələri nazirliyin əməkdaşları tərəfindən tərtib olunmuş, həm xəritələrin, həm də ərazidə müəyyən edilən geositlər və geoloji quruluş haqqında məlumatların elektron variantı hazırlanaraq Azərbaycan Milli Elmlər Akademiyasının Naxçıvan Bölməsinə təqdim olunmuşdur.

Gənclərlə işin səmərəli təşkili məqsədilə Naxçıvan Muxtar Respublikasının Gənclər Fondu ilə birgə hazırlanmış tədbirlər planına uyğun olaraq “Ekoloji könüllülər” layihəsi çərçivəsində ekologiya könüllüləri ilə “Gələcək üçün təmizlə” devizi altında Naxçıvançay vadisində təmizlik aksiyası keçirilmiş, gənclərə ətraf mühitin mühafizəsi üçün görülən işlər və könüllülərin bu sahədə rolu haqqında geniş məlumat verilmişdir.

Naxçıvan Dövlət Universitetinin nazirliyin hamiliyinə verilmiş Ekologiya mühəndisliyi və Geologiya mühəndisliyi ixtisaslarının tələbələri ötən ay Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin Əlincəçay vadisində apardığı qazma işləri ilə tanış olmuş, onlara geoloji axtarış və qazma işləri haqqında geniş məlumat verilmişdir. Tələbələr Culfa şəhərində Geoloji Axtarış və Kəşfiyyat İdarəsinin bazasında yerləşən Geologiya Muzeyi və laborator analizlərin aparılması ilə tanış olmuşlar. Ekoloji tədbirlər davam etdiriləcəkdir.

***Naxçıvan Muxtar Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat xidməti***

# Vur, əsgərim, haqq sənin, həqiqət də sənindir...



...Otuz ildir qələmim qəzəbindən boğulur,
Otuz ildir ümidlər bəlayində boğulur,
Otuz ildir arzular sinələrdə dağ olur,
Otuz ildir millətin səbiri də sovrulur...
İndi zaman dəmidir, indi günəş doğulur...
Vur çatlasın, əsgərim, düşmənin qan yaddaşı!..
Ucalsın enməzliyə Vətənin məğrur başı!..

Bu günün şairi də, qibləgahı da sənsən,
Sənin qalib zəfərin zamanın dastanıdır.
Səngər-səngər döyüşüb qaldırdığın o bayraq
Vətən şəhidlərinin al qırmızı qanıdır...
Vur, əsgərim, düşmənin sönsün o son çırağı!..
Kəsilsin düşmən əli, qoy pozulsun növrağı!..

Bu bir şanlı tarix ki, düşübdü xoş bəxtinə,
Bu tarixi yaradan, bu tarixi yazan sən,
Yazdığın bu tarixin hər anı qan yaddaşı,
Bu tarix yazılarmı öz canından keçməsən?!
Vur, əsgərim, qələbə, qələbə bizimlədir!..
Ən böyük davamızsa gələcəkdə – öndədir!..

Qarabağ havasına köklənsən də bu gün sən
Zəngəzur, Göyçə gölü gözləyir yolunuzu.
İrəvan xanlığının xanlığını qaytarıb
Dola Vətən boynuna o məğrur qolunuzu...
Vur, əsgərim,Vətənin gülsün dağı, aranı!..
Qoy axsın səngər-səngər düşmənin murdar qanı!..

Arxanda dayanıbdı o Ali Baş Komandan,
Hər addımı qətiyyət, hər addımı cəsarət!
Millətin ruh bayrağı, bayraqdarı da Odur,



Odur Haqqın haqq səsi, o səsdə ulu qeyrət...
Vur, əsgərim, möhkəm vur həqiqətin zəfərin!..
Təngiməsin, bitməsin tarix yazan hünərin!..

Sənin baban qan tökub, Vətən qurub hünərlə,
Düşmənə qan uddurub tarixboyu zəfərlə.



Qoru Vətən mülkünü Şah İsmayıl təpərlə,
Misri qılınc əlində, dəliləri səfərlə...
Vur, əsgərim, dağılsın düşmənin son siparı!..
Zəfərin qoy çulğasın anamız Göyü,Yeri!..

Vur, əsgərim, Haqq sənin, həqiqət də sənindir,
Həqiqətə kor olan Həqiqətə qənimdir.
Bu Vətən həm millətin, bu Vətən həm sənindir,
Sən millətin oğlusan, bu millət də sənindir...
Vur, əsgərim, əlinlə tarixə öz möhrünü!..
Nəsillər də qorusun doğma Vətən mülkünü!..

Bu gün Vətənin gözü səmintək qeyrətdədir!
Bu gün düşmənin gözü səmintək heyrətdədir!
Bu günün hər anı da cəsarət, cürətdədir!
Nə mənsəbdə, nə "ad"da, nə ucuz şöhrətdədir...
Vur, əsgərim, möhkəm vur cəsarətin cəngini!
Qaytar bir də özünə millətin ahəngini!..
...Vur, əsgərim, Haqq sənin, həqiqət də sənindir!!!

**Xanəli KƏRİMLİ**

## Azərbaycan əsgəri dünyanı erməni faşizmindən xilas edəcək

***Bu gün böyük və güclü Vətənimiz tarixi sınaq içindədir. Elə bir sınaq ki indi bütün dünya xalqları sülh və rahatlıq içində yaşasalar da, qismətinə xain ermənilərlə qonşuluqda yaşamaq düşmüş Azərbaycan bir yumruq kimi səfərbər olub düşmənlə çarpışır. Düşmən isə məkrlidir. İllərlə yaşadıqları Azərbaycan torpağının çörəyini yeyib, suyundan içən ermənilər türklərə qarşı bəslədiyi nifrətlə, sanki indi bütün dünyanın boğazına yapışaraq hər yerdə qan axtarırlar. Amma düşmən nə qədər qəddar, nə qədər amansız olsa da, onun qarşısında güclü Azərbaycan Ordusu dayanıb.***

Qarabağ Azərbaycandır! İndi bu şüar ölkəmizdə kiçikdən-böyüyə hər kəsin dilində bir müharibə marşı kimi səslənir. Vətənimizin dilbər guşəsi, Üzeyir nəğməli, Bülbül səsli Qarabağın, nəhayət ki, düşmən işğalından azad edilməsi zamanı gəlib çatıb. Ali Baş Komandanımızın əmri ilə irəliyə doğru əks-hücuma keçən Azərbaycan əsgəri hamımızın həsrətində olduğu o müqəddəs torpaqlara qovuşdurur bizi. Orada bizi gözüyaşlı Kəlbəcər, Şuşa, xanimanı tar-mar olmuş Qubadlı, qanadı qırılmış Laçın gözləyir. Sentyabrın 27-də Ermənistan ordusunun növbəti təxribatına cavab olaraq başladılan əks-hücum əməliyyatları nəticəsində uzun müddət işğalda qalmış Azərbaycan torpaqlarının xeyli hissəsinin qısa müddət ərzində azad olunması, eləcə də böyük dövlətlərin bu münaqişənin həllindəki maraqları və Vətənin müdafiəsinə qalxmış müzəffər ordumuzun erməni faşizmi üzərindəki parlaq qələbələri çox yaxında digər torpaqlarımızda da üçrəngli bayrağımızın dalğalanacağını, ədalətli sülhün bərpa olunacağını deməyə əsas verir.

Bəşəriyyət tarixində İkinci Dünya müharibəsi qədər genişmiqyaslı və dağıdıcı bir müharibə olmasa da, riyakar erməni faşizminin yaratdığı təhlükəni, sözün əsl mənasında, dost-düşmən tanımayan qlobal pandemiya ilə müqayisə etmək olar. Bu təhlükə xərçəng kimi yayılıb, heç gözlənilməyən yerlərdə peyda olub, qoca-cavan, qadın-uşaq demədən amansızlıqla hər kəsi qətlə yetirməyə hazırdır. İş o yerə çatıb ki, erməni faşizmi, hətta alman faşizmindən nəsibini almış bir sıra ölkələrdə də virus kimi yayılmaqdadır. İkinci Dünya müharibəsinin lap əvvəlində almanlara cəmisi 40 gündə boyun əymiş Fransanın tam olaraq indi də erməni faşizminə təslim olması, əslində, bu canavarın nə qədər təhlükəli olduğunu bir daha sübut edir.



Hələ yaxın keçmişdən XXI əsrin Türk dünyası əsri olacağını proqnoz edirdilər. Zaman gecikmədi. Və indi bunun şahidiyik! Gördük ki, maddi zənginlik içərisində itib-batan, amma mənəviyyatca bataqlıqda çürüyən Qərb Uca Tanrının kiçik bir imtahanı qarşısında nə qədər aciz qaldı! Nə mütərəqqi texnologiya, nə iri kapital, nə də başqa xalqların üzərindəki hökmranlıq iddiası onların köməyinə çatmadı. Çünki zaman elə zamandır ki, onun çarxı dolandıqca vaxtaşırı gücünü bütün dünyaya göstərib hər şeyi öz tarazına qoyur. 2020-ci ildə də belə oldu. Hazırda bəşəriyyət gözəgörünməz virusun kökünü kəsmək üçün mübarizə apardığı bir dönəmdə Azərbaycan xalqı bir yumruq kimi birləşib son yüzilliyin probleminə birdəfəlik son qoymaq savaşına qalxıb. Bu, bir az dolanışıq tapan kimi vaxtaşırı baş dikəldib, təkcə azərbaycanlılara deyil, yaşadıqları hər yerdə bütün xalqlara xəyanət edən, fürsət düşən kimi hər cür alçaq əməldən çəkinməyən soysuz ermənilərin qanına işləmiş faşizmə qarşı savaşdır.

Erməni faşizminə qarşı mübarizə, sadəcə, Qarabağ torpağının azadlığı üçün aparılan müharibə ilə bitmir. İndi heç kimə sirr deyil ki, özlərini hər yerdə məzlum millət kimi qələmə verib siyasi alət olmaqdan zövq alan ermənilər dünya ölkələrində işə saldıqları konyak diplomatiyası və digər özlərinə yaraşan üsullarla asanlıqla ələ aldıqları siyasətçilər və onların dairələri vasitəsilə diasporlaşıb dənizlərə çıxmaq planları ilə yaşayırlar. Tarixboyu qətiyyətli siyasətçilər tərəfindən dəfələrlə qarşısı alınmış belə sərsəm xülyalar zaman-zaman bulanıq dövrlərdə özünə münbit yer tapmış və nəticədə, yüz minlərlə günahsız insanın ölümünə, milyonlarla insanın qaçqın düşməsinə səbəb olmuşdu. Odur ki, Qarabağın erməni terrorundan təmizlənməsi uzun illər ərzində cəzasız qalmış cinayətkar rejimin dünyada formalaşdırdığı təbliğat köpüyünün də havaya uçması deməkdir. Bu həm də Gəncə, Mingəçevir kimi cəbhə xəttindən xeyli uzaqda yerləşən şəhərlərdə yaşayan dinc sakinləri hədəf alaraq son çırpınışlarını edən erməni faşizminin və onun havadarlarının iç üzünün tamamilə açılması deməkdir. Artıq aydın görünən mənzərə odur ki, heç bir dünya dövləti, hətta bir ay öncə Ermənistana açıq dəstək verənlər belə, ən yaxşı halda neytral mövqedə qalmaqla, necə deyərlər, səhvlərini başa düşüblər.

Ermənilər hiylə qurmağa çox ustadırlar. Faşizmə bulaşmış, türk qanına susamış ermənilər hiyləgər olduqları qədər, həm də qorxaq və acizdirlər. Hətta erməni şairi Yeğişe Çarens də öz milləti haqqında belə yazıb: "Ermənilərdə riyakarlıq ana bətnində olarkən yaranır". Görünür, uşaqlıqda Osmanlı çörəyi yemiş bu insan XX əsrin əvvəllərindəki o mürəkkəb dövrlərdən yaxşı dərs çıxarıb ki, bu kəlmələri yazıb. Ermənilərin heç zaman bir dövləti olmadığını yazan Qevorq Aslan isə "Ermənilər harada çörək boldursa, oranı özlərinə vətən hesab ediblər" yazıb. Belə yazılı tarixi faktları çox misal gətirmək olar. Ancaq elə sonuncu misaldan da göründüyü kimi adları belə, başqasının olan ermənilər həm də oğrudurlar. Qarabağda zəbt etdikləri qədim Azərbaycan məskənlərinə uydurma adlar yapışdıran ermənilər yeri gəldi, gəlmədi, hətta yemək adlarını, mahnıları, musiqi alətlərini də erməniləşdirməyə çalışırlar. Ancaq bu bədbəxtlər bilmirlər ki, artıq nə 100, nə də 30 il əvvəlki dövrdür. Dünya qloballaşır və əslində, bütün sağlamdüşüncəli insanlar bir məqsəd – yaxşı yaşamaq üçün yaşayıb, işləyirlər. Göyçədə məskunlaşmış, babasının haradan gəldiyini bilməyən zavallı sadə erməni bilmir ki, onun sərsəm ideoloqları on illər uzunu Azərbaycanın milli musiqi aləti olan balabanı "düdük"adı ilə milliləşdirmək üçün izafi vaxt itirdiyi dövrdə, dünya riyaziyyatı öyrənib, mühəndislər yetişdirib və indi onun işğalçı ordusunu başı üstündən, 90 dərəcəli bucaqdan vurur. Bax, budur erməni faşizminin gəldiyi nöqtədə onu gözləyən ən ədalətli cəza! Bu saatdan sonra artıq nə havadarlarına səxavətlə verdikləri bahalı canlı və cansız hədiyyələr, nə diplomatik yalvarışlar, nə də xaricdəki "vətənpərvərləri"erməni faşizminin köməyinə çatacaq. Bu, daxildə də Ermənistan hökumətinin iflasının bir başlanğıcıdır.

Terror dövləti Ermənistanın çöküşü, təkcə onun hər sahədə gücsüzlüyü, ianə üzərində qurulmuş iqtisadiyyatının zəifliyi və ideoloqlarının əsəbiliyi ilə əlaqədar deyil. Sovetlərin dağılması ilə keçən 30 il ərzində yeritdikləri qonşularla münaqişə siyasəti ucbatından ən azı onların 60 il gerisinə düşən Ermənistanda siyasi həyatın xronologiyası da acınacaqlıdır. Keçmiş İttifaqda Azərbaycanın sərvətləri hesabına özlərinə güzəran qurmuş ermənilər, müstəqil olduqlarından keçən müddət ərzində bir nəfər də olsun, nə görkəmli siyasi lider, nə də hərbi sərkərdə formalaşdıra bilmədi, tam əksinə, dövlət sərhədini böyük qardaşa etibar edib, strateji müəssisələrini də ona uduzdu. Türklər demiş, bunun fərqinə varanda isə artıq çox gec idi. Hay məntiqinə görə çıxış yolu isə etibarsız qardaşın ona sırıdığı köhnə silahları atəşləmək idi. 27 sentyabrda Ermənistan məhz bunu etdi və uduzdu. İşğalçının cavabını bu dəfə yüz qatına verən Azərbaycan Ordusunun indi bir vəzifəsi var: nəhayət ki, dünyanı, elə ermənilərin özlərini də erməni faşizmindən xilas etmək.

**✍ Əli CABBAROV**
***Naxçıvan Dövlət Universitetinin dosenti***

## İlkin tibbi yardımın təşkilinə dair təlim-treninq

***Naxçıvan Diaqnostika Müalicə Mərkəzində ekstremal vəziyyətlərdə təcili və təxirəsalınmaz tibbi yardımın təşkilinə dair təlim-treninq keçirilib.***

Mərkəzin baş həkimi Nihad Seyidov tədbirin məqsəd və prinsipləri barədə məlumat verərək sentyabrın 27-dən etibarən Ali Baş Komandan, Prezident cənab İlham Əliyevin rəhbərliyi altında igid Vətən övladlarının işğal altında olan torpaqlarımızın azadlığı uğrunda apardığı mübarizədən, böyük qələbəyə yaxınlaşdıran zəfərlərdən danışıb. Belə bir vaxtda tibb işçiləri yaralı əsgərlərimizə, mülki vətəndaşlarımıza ilkin təcili və təxirəsalınmaz tibbi xidmət göstərməklə qələbəmizə öz töhfələrini verirlər.

Sonra mərkəzin Cərrahiyyə şöbəsinin müdiri, tibb elmləri doktoru, dosent İsa Abdullayev, anesteziologiya və reanimasiya bölməsinin müdiri Ənvər Şıxəliyev, tibb bacıları Nərmin Qarayeva, Safura Hüseynova güllə, qəlpə və mina partlayışları, kəllə-beyin travmaları, yanğınlar zamanı ilkin tibbi yardımın təşkili və ilkin tibbi yardım tədbirləri haqqında məlumat veriblər.

Ekstremal vəziyyətlərdə ilkin tibbi yardım qaydaları mulyaj üzərində aparılıb, suallar cavablandırılıb.

***Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyinin mətbuat xidməti***

***İtmişdir***

İsmayılov İlqar Məhərrəm oğlunun adına olan 0200857262 nömrəli VÖEN itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Gülcamal Tahirova
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 793